# "Heydər Əliyev İli" çərçivəsində Şəkidə ağacəkmə aksiyası keçirilib





**"Heydər Əliyev İli" çərçivəsində Şəki Şəhər İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası (YAP) Şəki rayon təşkilatının birgə təşkilatçılığı ilə martın 17-də ağacəkmə aksiyası keçirilib.**

AZƏRTAC xəbər verir ki, aksiya zamanı Şəki Heydər Əliyev Mərkəzinin qarşısındakı ərazidə şam ağacları əkilib. Əkilən ağaclar suvarılıb, aqrotexniki qulluq göstərilib.

Aksiyada şəhər icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin rəhbər və əməkdaşları, YAP rayon təşkilatının könüllüləri iştirak ediblər.

Azərbaycan.- 2023.- 18 mart.- S.11.